**BLACKBERRY MÜŞTƏRİ (BLACKBERRY Client)
SON İSTİFADƏÇİ LİSENZİYA SAZİŞİ**

Bu müştəri proqram təminatı ("**Client**") BlackBerry Limited şirkəti və ya onun törəmə və tərəfdaş şirkətləri tərəfindən ("**BLACKBERRY**") təchiz edilir və ancaq tərəfdaş müəssisənin server proqram təminatı və xidməti ("**Server Proqram Təminatı (Server Software)**") ilə birlikdə istifadə üçün nəzərdə tutulmuşdur ki, o, Müştəri və İdarəedilən Proqramlarla aşağıda izah edilmiş qaydada (birlikdə "**Müştərinin Proqram Təminatı**" adlanır) bundan sonra "Solution" adlanacaq.

Müştəri proqram təminatının hər hansı birini quraşdırmaq, aktivləşdirmək və ya istifadə etmək üçün siz ya a) öz adınızdan (i) BLACKBERRY şirkəti ilə Solution, o cümlədən Solution məhsuluna aid hər hansı dəyişiklik və əlavə şərtləri də daxil olmaqla BlackBerry Solution Lisenziya Sazişi ("**BBSLA**") imzalamısınız və (ii) Solution məhsulunuz üçün tələb olunan hallarda cihazınızda belə Müştəri Proqram Təminatının quraşdırılması, aktivləşdirilməsi və istifadəsi üçün tələb oluna biləcək bütün haqları ödəməlisiniz; ya da b) öz işəgötürəniniz adından, yaxud (i) BBSLA-nı imzalamış, (ii) BBSLA-nın şərtləri altında Müştəri Prorqam təminatından istifadə edəcəyiniz şərtləri sizə bildirmiş, (iii) sizin Müştəri Proqram təminatından istifadə etmənizə cavabdehlik daşımağa razılıq vermiş; və (iv) sizin Lisenziya verilmiş şirkət Solution məhsulunuzun tələb etdiyi hallarda Müştəri Proqram təminatının sizin cihaza yüklənməsi, aktivləşdirilməsi və istifadə edilməsi üçün lazım olan hər hansı haqqı ödəmiş digər hüquqi şəxs ("**Lisenziya almış Təşkilat (Licensed Entity)**") adından belə Müştəri Proqram təminatını quraşdırmaq, aktivləşdirmək və istifadə etmək səlahiyyətini əldə etmiş olmalısınız.

Təşkilatınız ya şəxsi yerinizdə ya da cihazınızın ayrıca işçi yerində ("**İdarə edilən Proqramlar**") işləmək üçün nəzərdə tutulmuş proqramları, o cümlədən üçüncü tərəflərin təchiz etdiyi proqram təminatlarını sizin istifadənizə verməklə Mobil Proqramların İdarə Edilməsini həyata keçirmək üçün Solution-dan istifadə edə bilər. Belə proqramlar BBSLA çərçivəsində Üçüncü Tərəf Proqram Təminatı hesab olunur. Üçüncü Tərəf Proqram Təminatına sizinlə sizin Lisenziya almış Təşkilat və Üçüncü Tərəf Proqram Təminatının istifadəsini tənzimləyən təchizatçı arasında razılaşdırılmış əlavə şərt və müddəaları əhatə edə bilər. BLACKBERRY Üçüncü Tərəf Proqram Təminatı üçün cavabdehlik daşımır və onlarla bağlı bütün sual və ya şikayətlər Üçüncü Tərəf Proqram Təminatının təchizatçısına ünvanlanmalıdır.

Təşkilatınız şəxsi məlumatların toplanılması da daxil olmaqla Mobil Cihazların İdarə Edilməsi üçün (MCİ)_Solution-dan istifadə edə bilər. Təşkilatınız Solution-dan istifadə etməklə bütün məlumatların toplanılması, emalı, istifadəsi və idarə edilməsinə görə məsuliyyət daşıyır.

Yuxarıdakı şərtlərə əlavə olaraq, siz Apple's iTunes proqram mağazasından hər hansı Müştəri Proqram təminatını almısınızsa, Müştəri Proqram Təminatının quraşdırılması, aktivləşdirilməsi və istifadə edilməsi üçün adından səlahiyyət aldığınız Lisenziya almış Təşkilatın adından, belə səlahiyyət almadıqda isə, öz adınızdan qəbul edir və razılaşırsınız ki; (i) Apple belə Müştəri proqram təminatı üçün, o cümlədən istisnasız olaraq, onun işləməsi, texniki qulluq və dəstəyi üçün, yaxud bu Müştəri Proqram Təminatının əqli mülkiyyət hüquqlarını pozduğu Üçüncü Tərəflərin hər hansı iddiası üçün cavabdehlik daşımayacaq. Müştəri Proqram Təminatı hər hansı aidiyyatlı zəmanətə cavab verməzsə, siz Apple şirkətinə məlumat verə bilərsiniz və Apple belə

Müştəri Proqram Təminatının alış qiymətini (varsa) geri qaytaracaq və qanunun maksimum yol verdiyi dərəcədə Müştəri Proqram Təminatı üçün daha heç bir digər zəmanət öhdəliyi daşımayacaq. ; Apple və onun törəmə şirkətləri hazırkı Sazişin üçüncü tərəf benefisiarlarıdır və üçüncü tərəf benefisiarı kimi bu Sazişi tətbiq etmək hüququna malikdirlər (və bu hüququ qəbul etmələri hesab olunur).

AŞAĞIDAKI "RAZIYAM" DÜYMƏSİNƏ BASARAQ, YAXUD MÜŞTƏRİ PROQRAM TƏMİNATINI QURAŞDIRARAQ, AKTİVLƏŞDİRƏRƏK VƏ YA İSTİFADƏ EDƏRƏK SİZ: BU MÜQAVİLƏNİ OXUDUĞUNUZU, BAŞA DÜŞDÜYÜNÜZÜ VƏ ONUN QARŞISINDA ÖHDƏLİK DAŞIĞINIZI VƏ ONA RİAYƏT ETMƏYƏ RAZILAŞDIĞINIZI VƏ BLACKBERRY ŞİRKƏTİNƏ YUXARIDAKI a) VƏ YA b) –DƏKİ ŞƏRTLƏRİN YERİNƏ YETİRİLDİYİNİ TƏSDİQ EDİRSİNİZ. **ƏGƏR BU MÜQAVİLƏ İLƏ RAZI DEYİLSİNİZSƏ VƏ YA YUXARIDAKI ŞƏRTLƏRİN HƏR HANSI BİRİNƏ RİAYƏT ETMİRSİNİZSƏ MÜŞTƏRİ PROQRAM TƏMİNATINI QURAŞDIRA, AKTİVLƏŞDİRƏ VƏ YA İSTİFADƏ EDƏ BİLMƏZSİNİZ.**